


# Tarixin canlandığı, gələcəyin qurulduğu ocaq - Bəylik kəndi

Laçın rayonunun Bəylik kəndi də Böyük qayıdışın simvollarından birinə çevrilir. Bu, torpağın sahiblərinin doğma yurda dönüşüdür. Otuz üç illik sükutdan sonra Bəylik kəndi yenidən doğma sakinlərinin səsi ilə oyanır.

Prezident İlham Əliyevin təsdiq etdiyi "Böyük qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planı çərçivəsində tikilən Bəylik kəndi müasir yaşayış məntəqəsidir. Burada hər evdən ətrafa - dağlara, yamaclara sakinlərin xoş səs-sədaları yayılır. Onlar öz doğma ocaqlarının istisində gələcəyə yeni ümidlərlə addımlayırlar.



Azərbaycan. - 2025.- 15 avqust (№170).- S.10.